Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Yanvar 2025

# Milli viza üçün müraciətə dair ümumi məlumatlar

**1. Mən nə zaman milli viza almalıyam?**

Əgər Siz **90 gündən artıq fasiləsiz** Almaniyada qalmaq istəyirsinizsə, məs.: təhsil, iş və ya ailə birləşməsi üçün, bu halda **milli viza üçün** (D-Vizası) müraciət etməlisiniz. Milli viza yaşamaq üçün yalnız qanunla tənzimlənən məqsədin olduğu təqdirdə verilə bilər. Xahiş olunur tələb olunan sənədlərin siyahısını səfirliyin məlumat vərəqələrini oxumaqla əldə edin.

**2. Mənim viza müraciətinə dair sənədlərimin işlənməsinə Səfirlik cavabdehdirmi?**

Sizin daimi yaşayış yeriniz Azərbaycan olduğu halda səfirlik Sizin viza müraciətinizin işlənməsinə cavabdehdir. Əgər Siz ən az 6 ay müddətində Azərbaycanda qalmısınızsa, yaşayış yerinizin Azərbaycanda olduğunu güman etmək olar. Azərbaycan vətəndaşlığı olmayanlar bunu Azərbaycanda oturum icazəsini göstərən sənəd ilə təsdiq edirlər. Bu məsələdə Sizin hansı dövlətin vətəndaşı olmağınızın fərqi yoxdur. Daimi yaşayış yeri Azərbaycandan kənarda olan Azərbaycan vətəndaşları viza üçün yaşadıqları ölkədə səlahiyyətli alman nümayəndəliyinə müraciət etməlidirlər.

**3. Mən Viza üçün necə müraciət edə bilərəm? Viza rüsumu nə qədərdir?**

- **İxtisas dili imtahanı/ixtisas biliyi üzrə imtahan məqsədilə §16d maddəsinin 5-ci bəndinə uyğun olaraq** (**Fachsprachenprüfung / Kenntnisprüfung nach § 16d Absatz 5 AufenthG**)
- **Tələbələr, abituriyentlər və hazırlıq dil kurslarının iştirakçıları**
- **90 gündən artıq davam edən dil kursları**
- **Şans kartı**
- **Yük maşını və avtobus sürücüsü kimi əmək fəaliyyəti**
- **Peşə təhsili və təlimi üçün**
- **Praktika**

məqsədilə milli viza üçün yalnız kənar viza xidməti olan VisaMetric şirkətinə müraciət edə bilərsiniz. Xahiş olunur bu məqsədlə milli viza üçün ödənişsiz görüş vaxtı təyin edin: https://www.visametric.com/Azerbaijan/Germany/de.Viza müraciətlərini qəbul edən mərkəzin ünvanı aşağıdadır: **D.Əliyeva küçəsi 106, Winter Park Plaza, 1 mərtəbə, Bakı**

Milli viza müraciətlərinin qəbulu:

- **Mavi kart (Aİ)**
- **Muzdlu əmək fəaliyyəti**

üçün bütün tələb olunan sənədlərlə birlikdə **yalnız online qaydada Almaniyanın Xarici İşlər Nazirliyinin internet portalı üzərindən** həyata keçirilir.
Onlayn proses çərçivəsində səfirlik kənar viza xidməti olan VisaMetric şirkəti ilə işləyir. Visametric sənədlərinizin tam şəkildə hazırlandığını onlayn qaydada yoxlayır. Bütün sənədlər hazır olduqda, sizə ən yaxın viza qəbulu mərkəzində (VAZ) görüş təyin olunacaq. Orada barmaq izləriniz götürüləcək və viza rüsumlarını da saytda ödəyəcəksiniz. Daha sonra ərizəniz səfirliyə göndəriləcək. Viza müraciətinizlə bağlı qərarı kənar viza xidməti deyil, məhz səfirlik verir. İstənilən vaxt Alman XİN-nin internet portalı vasitəsilə müraciətinizin işlənməsinin hansı mərhələdə olduğunu izləyə bilərsiniz.

Aşağıdakı milli viza müraciətləri:

- **Au-pair**
- **Ailə birləşməsi**
- **Könüllülük xidməti**
- **Hospitasiya 90 gündən artıq**
- **Xarici peşə ixtisasların tanınması üçün tədbirlər**
- **Alman immiqrasiyası (Repatriantlar)**
- **Yəhudi immiqrasiyası**
- **Ölkəyə təkrar giriş**
- **90 gündən artıq qalmaqla burada adı qeyd olunmayan digər səfər məqsədləri üçün ərizələrin qəbulu** birbaşa **səfirliyin viza şöbəsində** həyata keçirilməyə davam edir.

Viza üçün müraciət yalnız səfirliyin rəsmi internet səhifəsi vasitəsilə əvvəlcədən görüş vaxtı təyin edildikdən sonra mümkündür. Hər bir ərizəçinin adına (azyaşlı uşaqlar da daxil olmaqla) ayrıca görüş vaxtı təyin edilməlidir. Görüş vaxtının təyin edilməsi ödənişsizdir. Səfirliyin qəbul sisteminə aşağıdakı link vasitəsilə daxil ola bilərsiniz:
https://service2.diplo.de/rktermin/extern/choose_realmList.do?request_locale=de&locationCode=baku

Xahiş olunur öncədən qəbul vaxtı təyin etmək haqqında düşünün, belə ki, milli viza üçün qəbul vaxtları mütəmadi olaraq bir neçə həftə əvvəl tutulduğundan boş yerlər qalmır.

Ərizə-anket, Yaşamaq haqqqında qanunun § 54-cü paraqrafına əsasən bəyannamə, habelə ayrı-ayrı məqsədlər üçün məlumat vərəqələrini Siz ödənişsiz olaraq səfirlikdən əldə edə yaxud www.baku.diplo.de internet səhifəsindən yükləyib doldurub çap edə bilərsiniz. Tövsiyə edilir ki, rəsmi internet səhifəsində qoyulan elektron ərizə anketdən VIDEX istifadə edəsiniz.

Əgər cari viza prosesi zamanı suallar yaranarsa və ya sənədin işlənməsi yekunlaşmışdırsa Sizə bu barədə **email və ya telefon vasitəsilə** məlumat veriləcəkdir. Bu səbəbdən fikir verin ki, ərizə-anketdə **email ünvanınız** və **telefon nömrəniz** düzgün və aydın yazılmış olsun.

Bütün sənədlərin **1 ədəd surəti** təqdim olunmalıdır. Natamam sənədlər onların geri qaytarılması və ya təqdim edilən sənədlərə əsasən müvafiq qərarın verilməsi ilə nəticələnəcəkdir. Bundan başqa Səfirlik ayrı-ayrı hallarda sonradan əlavə sənədlərin tələb olunması hüququnu özündə saxlayır. Sənədlərin tam şəkildə təqdim olunması avtomatik olaraq viza verilməsini bildirmir.

Xarici dildə olan bütün sənədlər **alman dilinə tərcüməsi** ilə (notaris tərəfindən təsdiqlənmiş tərcümə yaxud Almaniyada yaşayan andlı tərçüməçilər tərəfindən) birlikdə təqdim edilməlidir.

**Viza rüsumu** 75 avro, 18 yaşa çatmamış uşaqlar üçün isə 40 avro təşkil edir. Rüsum nağd şəkildə Azərbaycan manatı ilə Səfirliyin həmin gün üçün aktual valyuta kursuna əsasən ödənilməlidir və yaxud kredit kartı ilə (Visa, Mastercard ) olmaqla ( Google Pay, Apple Pay və bənzər ödəmə sistemləri qəbul edilmir) Avro ilə ödənilə bilər. Visametrik şirkəti də nağd və ya kredit kartı ilə ödənişi qəbul edə bilir. Stipendiatlar (məs.: Erasmus, DAAD) və alman vətəndaşlarının ailə üzvləri (həyat yoldaşları, azyaşlı uşaqları, yetkinlik yaşına çatmayan alman uşağın valideynləri ) viza rüsumunun ödənişindən azaddır.

**4. Mən şəxsən sənədlərimi təqdim etməliyəm?**

Bəli. Hər bir ərizəçi həmçinin istənilən yaşda olan uşaq və körpələr şəxsən Səfirliyə gəlməlidir. 12 yaşı tamam olmuş hər bir şəxsin barmaq izləri də götürüləcəkdir.

18 yaşı tamam olmuş hər bir ərizəçi özü sənəd verməlidir, yetkinlik yaşına çatmayanların ərizə anketi valideynlər/qəyumlar tərəfindən imzalanmalıdır.

**5. Mənim viza sənədlərimin işlənməsi nə qədər davam edir?**

Sənədlərin işlənmə müddəti Sizin yaşamaq məqsədinizdən və Sizin Almaniyada gələcək qalma yerinizdən asılıdır. Sizin viza müraciətiniz haqqında qərarı Səfirlik əksər hallarda Almaniyada

qalacağınız şəhərin Miqrasiya İdarəsi və /və ya Əhalinin Əmək Məşğulluğu üzrə Federal Agentliyi ilə əməkdaşlıq edərək birlikdə verir. Bu səbəbdən **bir qayda olaraq Səfirliyin sənədlərin işlənmə müddətinə müdaxiləsi olmur.**

Xahiş olunur nəzərdə tutulan işlənmə müddətinə dair daha geniş məlumatı Sizin səfər məqsədiniz üçün tərtib edilən məlumat vərəqəsindən əldə edin. Oradakı məlumat Səfirliyin təcrübəsinə əsaslanır və mütləq deyildir.

**6. Mən necə məlumat ala bilərəm ki, mənim ərizəmin işlənməsi yekunlaşmışdır?**

Ərizə kənar viza xidməti olan VisaMetric şirkəti vasitəsilə təqdim edildikdə pasport da həmçinin VisaMetric vasitəsilə qaytarılır. Siz Visametric saytında "müraciətin izlənməsi"ndən istifadə edə bilərsiniz: https://www.visametric.com/Azerbaijan/Germany/az.




Bununla yanaşı VisaMetric-də geri göndərmə üçün ödənişli kuryer xidmətindən də istifadə edilə bilər. Bu xidmət ərizə təqdim edildikdə ödənilməlidir.

Birbaşa Səfirliyin viza şöbəsində təqdim edilən viza kateqoriyaları üçün müraciətlər zamanı Sizin ərizənizin işlənməsi bitdikdə viza şöbəsi Sizə telefon və ya email vasitəsilə bu barədə məlumat verəcəkdir. Bu səbəbdən fikir verin ki, ərizə-anketdə **email ünvanınız və telefon nömrəniz** düzgün və aydın yazılmış olsun. Əgər email ünvanınızı və ya telefon nömrənizi dəyişmisinizsə, bu barədə Səfirliyi məlumatlandırın. Sizin xarici pasportunuz sənədlərinizin işlənmə müddətində Səfirlikdə saxlanmayacaqdır.

Əgər Sizin sənədlərinizin işlənməsi bir neçə gün ərzində baş tutacaqsa, Sizə artıq sənədlərinizi təqdim edərkən pasportunuzu nə zaman götürə biləcəyinizi bildirəcəklər.

**Xahiş olunur pasportunuzu götürdükdən sonra vizanıza nəzər salıb bütün məlumatların o cümlədən rüsumun düzgünlüyündən əmin olun. Şikayətlərinizi dərhal birbaşa viza şöbəsinə bildirin.**

**7. Mənə tibbi sığorta lazımdırmı? Nə zaman onu təqdim etməliyəm?**

Ümumiyyətlə Siz həmişə milli viza verilməmişdən əvvəl tibbi sığorta haqqında sübut təqdim etməlisiniz. Viza üçün müraciət edərkən tibbi sığorta sənədinə də ehtiyac olub-olmadığı haqqında daha dəqiq məlumatı Siz səfərinizin məqsədinə uyğun səfirliyin interenet səhifəsindəki məlumat vərəqəsindən əldə edə bilərsiniz.

Sığorta həmişə müəyyən minimal şərtlərə cavab verməlidir: Sığorta ödənişinin minimal məbləği **30.000 avro** və ya **50.000 dollar** həcmində olmalı və yalnız Almaniyaya səfər edəcəyinizə rəğmən **bütün** Şengen dövlətləri üçün keçərli olmalıdır.

**8. Milli viza hansı müddətə qüvvədədir? Mən bu vizanın müddətini necə uzada bilərəm?**

Milli viza səfərin məqsədindən asılı olaraq 90 gündən 1 il müddətinədək verilir. Milli viza Almaniyada yaşayacağınız şəhərdəki Miqrasiya idarəsi tərəfindən uzadılır. Gedəcəyiniz şəhərə çatan kimi birbaşa müvafiq Miqrasiya İdarəsinə müraciət edin və orada Sizə yaşamaq icazəsinin verilməsi üçün müraciət edin.

**9. Mən miili viza ilə digər Şengen dövlətlərinə də səfər edə bilərəmmi?**

Bəli. Milli viza Sizə 180 gün ərzində 90 günədək bütün Şengen dövlətlərində qalmaq icazəsi verir.

**10. Mənim yekunlaşmış xarici ali təhsilimin tanınıb-tanınmamasını mən necə yoxlaya bilərəm?**
Sizin xarici ali təhslinizin tanınıb-tanınmamasını yaxud müqayisə edilə bilməsini Siz ANABİN məlumat bankından öyrənə bilərsiniz: http://anabin.kmk.org/. Siz burada ya Sizin ali məktəbinizin tanınıb-tanınmamasını (qiymətləndirmə „H+") yoxlaya bilərsiniz yaxud alman ali məktəbi ilə müqayisə olub-olmamasını öyrənə bilərsiniz (burada diplomunuzun ekvivalentlik sinfi „entspricht"/"uyğun gəlir" və ya „gleichwertig"/"eyni dərəcəli" kimi qeyd olunaraq alman diplomu ilə müqayisə olunacaqdır) Əgər bu qeydiyyat varsa bu halda ANABİN-də sorğunuzun nəticəsini iki nüsxədə çap edərək ərizə-anketinizə əlavə edib özünüzlə gətirin və ya Almaniya XİN-nin internet portalında ali təhsil haqqında məlumatlara online şəkildə yükləyin.

Əgər belə bir qeydiyyat yoxdursa, bu halda Siz viza üçün müraciət etməzdən əvvəl ali təhsilə dair buraxılış sənədlərinizin qiymətləndirilməsi/tanınması Xarici Təhsil Müəssisələri üzrə Mərkəzi İdarəyə (Zentralstelle für ausländisches Bildungswesen) üçün müraciət etməlisiniz.

**11. Mütəxəssis kimi bir peşə ixtisası sahəsində işləmək məqsədilə vizaya müraciət etmək üçün mən xarici peşə təhsilimin alman peşə təhsili ilə eyni dərəcədə dəyərləndirilməsini necə sübut edə bilərəm?**
Mütəxəssis kimi işləmək vizasına müraciət etməzdən əvvəl, Almaniyada diplomların tanınması üçün cavabdeh idarə Sizin xarici peşə təhsilinizin Almaniyadakı peşə təhsili ilə eyni səviyyədə olmasını təsdiq etməlidir. Cavabdeh idarəni Siz aşağıdakı internet portalından tapa bilərsiniz:
www.anerkennung-in-deutschland.de
Bu internet portalında Siz həmçinin xarici diplomların tanınması ilə bağlı prosedur və şərtlər barədə ətraflı məlumat əldə edəcəksiniz.

**12. Peşə təcrübəsi ilə işə başlamaq üçün vizaya müraciət edərkən mən necə sübut edə bilərəm ki, mənim xarici peşə ixtisasım onun əldə olunduğu ölkə tərəfindən rəsmi şəkildə tanınır və onun əldə edilməsi üçün ən azı iki illik təlim müddəti şərtdir?**
Siz son beş il ərzində ən azı iki illik ixtisaslı peşə təcrübənizin sübutunu təqdim edə bilərsiniz, beləliklə, peşəkar təcrübəniz Almaniyada etmək istədiyiniz işə kifayət qədər uyğun olmalıdır, yəni bu, etmək istədiyiniz işlə bağlı olmalıdır. İş təcrübəsi ilə işləmək üçün viza ərizəsi təqdim etməzdən əvvəl, ixtisasınızı təsdiq edən sənəd malik olmalısınız: Sizin, əldə edildiyi ölkədə dövlət tərəfindən tanınan peşə və ya universitet təhsiliniz olmalıdır. Əldə edilən peşə ixtisası üçün ən azı iki illik təhsilin olması vacib şərtdir. Viza müraciəti üçün sübut kimi Sizə təhsilinizin dərəcəsini təsdiq edən "Peşə Təhsili üzrə Rəqəmsal Məlumat" [Digitale Auskunft zur Berufsqualifikation (DAB)] lazımdır. Əgər söhbət universitet təhsilindən gedirsə, bu halda yuxarıda 10-cu bəndə aid məlumatı nəzərə alın. Əlavə məlumatı burada tapa bilərsiniz: https://www.make-it-in-germany.com/de/visum-aufenthalt/arten/visum-berufserfahrene .

**13. Viza müraciəti üçün tələb olunarsa mən alman dili biliklərimi necə sübut edə bilərəm?**
Bir neçə səfər məqsədi üçün viza rəsmiləşdirilməsi zamanı alman dili biliklərinin təsdiqi tələb olunur. Bu biliklər dil sertifikatı vasitəsilə təsdiq olunmalıdır.
Alman dili biliklərinin təsdiqi yalnız „Standards der Association of Language Testers in Europe (ALTE)" uyğun standartlaşdırılmış dil imtahanı nəticəsində verilən dil sertifikatları ilkə həyata keçrilə bilər.
Bu hazırda aşağıdakı qurumların - imtahanın keçirildiyi yerdən asılı olmayaraq - sertifikatlarına şamil edilir:

- Goethe-Institut e.V.,
- telc GmbH,
- Österreichisches Sprachdiplom (ÖSD),
- TestDaF-Institut e.V. (Hagen Universitetinin institutu və Boxum Ruhr Universiteti; „B2" GER dil səviyyəsindən etibarən),
- ECL Prüfungszentrum (imtahan mərkəzi, imtahanlar AFU GmbH tərəfindən həyata keçirilir).

Sertifikat yalnız imtahanın bütün tərkib hissələrinin uğurla verildıyi təqdirdə tam təsdiq sənədi hesab olunur. İmtahanın ayrı-ayrı hissələrinin müxtəlif qurumlarda verilməsi kifayət etmir.

Adətən verilmə tarixi bir ildən artıq olmayan sertifikatlar səfirlik tərəfindən qəbul edilir.

**14. Mənim viza müraciətimə rədd cavabı verilmişdirsə mən nə edə bilərəm?**
Sizin ərizənizə verilən rədd cavabının səbəbləri ilə **imtina cavabı vərəqəsini** oxumaqla tanış ola bilərsiniz.

**İmtina cavabı**
İmtina cavabı aldığınız təqdirdə bu qərara qarşı etirazınızı məlumatı aldığınız vaxtdan etibarən bir ay ərzində bildirə bilərsiniz. **Etiraz məktubunuzu** faks, email ilə və ya əslini səfirliyə göndərə bilərsiniz. Məktubda Sizin şəxsi məlumatlarınız qeyd olunmalıdır ki, məktubun hansı ərizəyə aid olduğu təyin edilə bilsin. Məktubda Siz həmçinin bildirməlisiniz ki, imtina cavabının səhv qərar hesab etdiyinizi nə ilə əsaslandırırsınız. Fikir verin ki, məktub **imzalanmış** olsun. Xahiş edirik viza verilməsi üçün xeyirli olduğunu hesab etdiyiniz əlavə sənədləri də məktuba əlavə edin. Məktub alman və ya ingilis dillərində yazıla bilər.

Sizin etiraz məktubunuz səfirliyə daxil olduqdan sonra  Səfirlik viza ərizənizi **yenidən yoxlayacaqdır**. Etiraz ərizəsi xronoloji ardıcıllıqla işlənilir və bir qayda olaraq bir neçə həftədən bir neçə aya qədər davam edir.

Etiraz məktubu ilə yanaşı **yeni ərizə ilə viza üçün müraciət** etmək və ya Berlindəki inzibati məhkəmədə iddia qaldırmaq imkanı da vardır. Əgər artıq etiraz ərizəsini yazmısınızsa, onun işlənməsi viza üçün yenidən müraciət edilən kimi dərhal dayandırılacaqdır.